DOI: 10.36719/AEM/2007-2019/49/62-64
**Fəridə Mürşüd qızı Mikayılova**
ADPU-nun Ağcabədi filialı

# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRƏ HÖRMƏT XALQIMIZIN HƏYAT TƏRZİDİR

***Açar sözlər:*** *etnik qrup, həyat tərzi, milli azlıq, qloballaşma, milli-mənəvi milli-mənəvi dəyər*
***Key words***: *ethnic group, lifestyle, national minority, globalization, national moral quality.*
***Ключевые слова***: *этническая группа, образ жизни, национальное меньшинство, глобализация, национально-нравственные ценности*

Azərbaycan xalqı tarixi milli, dini adət-ənənələrinə görə inkişaf etmiş xalqdır. Xalqımızın mənəvi simasını əks etdirən adətləri xalq əsrlər boyu yaşatmışdır. Bunlar insanların həyat və məşiət şəraitini, onlar arasındakı münasibətləri və davranışındakı xüsusiyyətləri əks etdirir. Bütün tarixi dövrlərdə insanların məşiətində adət-ənənələr tənzimləyici rol oynamışdır. Xalqımızın həyat tərzinə çevrilmiş milli-mənəvi dəyərlərə əməl edilməsi hamımızın vətəndaşlıq borcudur.

Adət-ənənələr nəsillər arasında mənəvi sərvətlərin varisliyinə əsaslanır. Həyat tərzinin qayda-qanunları kollektiv sosial yaradıcılığın genişlənməsini tələb edir. Cəmiyyətin sosial-iqtisadi sahəsində meydana çıxan yenilik milli-mənəvi dəyərlərin məzmununda müəyyən dəyişiklik yaradır. Varislik əlaqəsi isə mühüm qanunauyğunluq kimi həyat tərzinin tərkib hissəsi olan adət-ənənələrin inkişafında özünü göstərir.

Azərbaycan xalqının qonaqpərvərliyi, böyüklərə hörmət, qonşuluq, dostluq, qarşılıqlı hörmət, başqa xalqların, etnik qrupların, dini icmaların nümayəndələrinə tolerant münasibət onun milli xüsusiyyətlərindəndir. Tarixin bütün mərhələlərində Azərbaycan ərazisində məskunlaşan milli azlıqlar, etnik, dini, irqi mənsubiyyətlərinə, etnik-mədəni dəyərlərinə görə ölkənin əsas əhalisi olan Azərbaycan türkləri tərəfindən təqib olunmamış və ayrı-seçkiliyə məruz qalmamışdır. Azərbaycan çox mədəniyyətli ölkədir. Hazırda respublikamızda 60-dan çox milli azlıq və etnik qrupun nümayəndəsi yaşayır.

Milli-mənəvi dəyərlərin xalqımızın həyat tərzinə çevrilməsində elmin, təhsilin, incəsənətin rolu danılmazdır. Azərbaycan dövləti elmin, təhsilin, mədəniyyətin inkişafını planlaşdırdığı zaman onu əsas götürür ki, milli-mənəvi dəyərlər yeni insanın formalaşdırılmasına xidmət etsin, ölkəmizdə mətbuatın, radio-televiziya kanallarının çoxalması, internet resurslarının artması, geniş mədəni-maarif şəbəkələri və s. sayəsində dövlətin milyonlarla insana tərbiyəvi təsir göstərməsi onların intelektual və mənəvi inkişafına, vətənpərvərliyin və sosial mənsubiyyət hissinin artmasına gətirib çıxarır. Dövlətimizin bu fəaliyyəti humanist xarakter daşıyır. Çünki inkişafda olan müstəqil dövlətimizin birinci dərəcəli problemi sosial tərəqqinin əsasını və məqsədini təşkil edən insan şəxsiyyəti məsələsidir. Şəxsiyyətin hərtərəfli tam inkişafı müstəqil dövlətimizin idealı və məqsədi, bununla birgə mədəniyyətin tərəqqisinin əsas xarakteristikasıdır. Bu tərəqqi yalnız mədəni sərvətlər xəzinəsinin zənginləşməsində deyil, vətəndaşların mədəni fəaliyyətinin artmasında, yayılmasında da öz əksini tapır.

Müasir dövrdə şəxsiyyətin formalaşmasında milli dəyərlərin təsirini gücləndirmək işində keçmiş tarixi ənənələrə və milli dəyərlərə qayğı ilə yanaşmaq eyni zamanda müasir dünyada gedən qloballaşma proseslərinin yaratdığı ümumibəşər dəyərlərin müsbət tərəflərini əks etmək çox vacib şərtdir.

Mənəvi mədəniyyətin unikal sərvətinin hamının malı olması üçün onu qoruyub saxlamaq vacibdir. Mənəvi sərvətlərin qorunub saxlanması yalnız onun fiziki cəhətdən korlanmasının, unudulmasının qarşısını almaq məqsədi daşımır. Hər bir xalq, hər bir nəsil öz mədəniyyətini boş bir səhrada, heç nədən yaratmır. Hər bir mədəniyyət özündən əvvəlki mədəniyyətin əsasında yaradılır. Mənəvi tələbat adamları mövcud mənəvi sərvətləri mənimsəməyə və yenilərini yaratmağa şövq edir.

Xalqımızın həyat tərzinin unikal ünsürlərindən biri də milli mərasimlərin və bayramların qeyd olunmasıdır. Bu baxımdan xalqımızın yaddaşına həkk olunmuş, yüzillər qorunub saxlanmış Novruz Bayramı mütərəqqi ənənəmizdir. Yəni mütərəqqi adət-ənənələrinmizin ən yaxşı xüsusiyyətlərini özündə əks etdirən xalq mərasimlərindən biridir. Belə mərasimlər xalqın, millətin yaratdığı maddi və mənəvi sərvətləri özündə birləşdirərək, gələcək nəsillərə çatdırır. Tarixin müxtəlif mərhələlərində xüsusən, sovet dönəmində bu bayram fərqli münasibətlərlə qarşılansa da, xalq öz adətinə dönük çıxmamış, Novruz bayramını ulu əcdadlarını ruhuna hörmət əlaməti kimi yaşatmışdır.

Ümummilli Lider Heydər Əliyev milli dəyərlərimizi təkcə milli varlığımızı yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan Ulu Öndər deyirdi: “Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz

milli mənsubiyyətini, milli mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək hər bir insanın inkişafının təmin olunması deməkdir".

Dövlət siyasətində hər bir azərbaycanlının hər şeydən əvvəl, öz xalqının dəyərlərinə sahib çıxması, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və milli dəyərlərini qoruması önə çəkilir.

Milli dəyərlərə dərindən bələd olan Ümummilli Lider xarici ölkələrə səfərləri zamanı oradakı soydaşlarımızla görüşlərində onlara harada yaşamalarından asılı olmayaraq xalqımıza xas olan adət-ənənələrimizi yaşatmağı, təbliğ etməyi tövsiyə edirdi: "Bizim hamımızın bir Vətəni var – bu Azərbaycandır. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini milli ənənələrini unutmamalıdır".

Müasir dövrdə din cəmiyyətin sosial-mədəni, mənəvi tərəqqisinə, cəmiyyət üzvlərinin bəşəri dəyərlər və hümanist ruhda tərbiyələnməsinə xidmət edir. Azərbaycanlıların ənənəvi dini olan islam dini insanın, mənəvi təkamülündə, daxilən saflaşmasında onun həyat məqsədi və mənəvi idealının formalaşmasında, yaxşını pisdən seçməsində, ədalətli və xeyirxah mövqe tutmasında böyük əhəmiyyətə malikdir.

İslamda tolerantlıq və dini dözümlülük yüksək mənəvi dəyər və mədəniyyət kimi qiymətləndirilir. Tolerantlığın Azərbaycan xalqının həyat tərzinə çevrilməsi danılmaz faktdır. Tarixi faktlar təsdiqləyir ki, bütün dövrlərdə müsəlmanlar öz inanclarına söykənərək, digər dinlərin nümayəndələrinə nəinki, tolerant münasibət bəsləmiş, hətta özləri üçün ibadət evləri tikmək, etiqadlarına uyğun yaşamaları üçün onlara yardım göstərmişlər.

Azərbaycanda dini azadlıların yüksək səviyyədə təmin edilməsi, bütün dinlərin və dini münasibətlərin qanun qarşısında bərabər olması, dövlət tərəfindən dini icmalara hər cür dəstəyin göstərilməsi öz məntiqi nəticəsi kimi ölkə daxilində dinlər arası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulmasına səbəb olur. Azərbaycanda dinlər arası münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edən prezident İ.Əliyev deyir: "Azərbaycanda bütün xalqların, bütün konfessiyaların, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar və yaşayacaqlar. Heç vaxt ölkəmizdə dini zəmində heç bir qarşıdurma olmamışdır və olmayacaqdır. Hətta heç bir anlaşılmazlıq da olmamalıdır və yoxdur. Biz bu yolla gedirik və dünyaya bu yolu göstəririk".

Azərbaycan Respublikası Prezidenti cənab İ.Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi varisi kimi milli dəyərlərə dövlət səviyyəsində diqqət və qayğı göstərir. Hər bir məsələ də Ulu Öndərin ideyalarını meyar kimi görən ölkə başçısının milli dəyərlərin qorunması, inkişaf etdirilərək gələcək nəsillərə çatdırılması ilə bağlı siyasəti də bu baxımdan çağdaş dövrün reallıqları ilə şərtlənir. Bu gün dövlət xalqımızın milli dəyərlərinin qarantına çevrilmişdir.

Prezident İ.Əliyevin milli ideologiyaya dair baxışları onun siyasi portretinin əsas cizgilərini təcəssüm etdirir. Görülən bu işlər, sadəcə diqqət və qayğı nümunəsi olmaqla məhdudlaşa bilməz. Bütün bunlar qədimdən bizə gəlib çatan müqəddəs irsin gələcək nəsillərə əmanət edilməsi, Azərbaycançılıq məfkurəsinin milli dəyərlər sisteminin bütün dünyada təbliği və qəbul olunması üçün həyata keçirilən məqsədyönlü strategiyanın tərkib hissəsidir.

Azərbaycanın birinci vitse-prezidenti, Heydər Əliyev fondunun prezidenti Mehriban Əliyevanın milli dəyərlərimizin qorunması və təbliğ edilməsi istiqamətindəki fəaliyyətini xalqımız böyük minnətdarlıq hissi ilə qarşılayır.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Konstitutsiyası. Bakı, 1995.
2. Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997.
3. Azərbaycan multukulturalizm. Red.K.Abdulla. Bakı, 2017.
4. S.Məmmədova. Mədəniyyətşünaslıq. Bakı, 2001.
5. R.Əliyev. Din Əxlaqa aparan yol. Bakı, 2005.

**Respect for national and moral values is the lifestyle of our people**

**Summary**

Traditions reflecting the spiritual image of our people have been around for centuries. Traditions are based on the inherited spiritual wealth of generations. Lifestyle rules require the expansion of collective social creativity. Innovation in the socio-economic sphere of society creates certain changes in the content of national-moral values. The role of science, education and art in the transformation of national and moral values into the lifestyle of our people is undeniable.

**Уважение национальных и моральных ценностей - это образ жизни наших людей**

**Резюме**

Традиции, отражающие духовный образ нашего народа, существовали веками. Традиции основаны на унаследованном духовном богатстве поколений. Правила образа жизни требуют расширения коллективного социального творчества. Инновации в социально-экономической сфере общества создают определенные изменения в содержании национально-нравственных ценностей. Роль науки, образования и искусства в преобразовании национальных и нравственных ценностей в образ жизни наших людей неоспорима.

**Rəyçi: dos. Ə.Əliyev**